# İlham Əliyev Qarabağı gülüstana çevirir

## Prezident 4 gün ərzində 4 rayonda müxtəlif obyektlərin açılışını etdi, yeni infrastrukturların təməlini qoydu

**Prezident İlham Əliyevin ötən həftə ərzində Qarabağa səfəri, işğaldan azad olunmuş rayonlarda, kəndlərdə görülmüş işlərlə yerində tanış olması Qarabağ və Şərqi Zəngəzurun bərpasının və keçmiş məcburi köçkünlərin öz yurdlarına qayıtmasının dövlət başçısı üçün prioritet olduğunu bir daha göstərdi.**



Ölkə rəhbəri ad günü ərəfəsində Xocavənd, Xocalı, Ağdam, Şuşa rayonlarında və Xankəndi şəhərində oldu. Prezident Qarabağda bir sıra obyektlərin açılışını da etdi, müxtəlif istiqamətli yeni infrastrukturların təməlini qoydu.

Tarixi Qarabağ və MOİK oyunundan əvvəl Xankəndi stadionunda çıxış edən dövlət başçısı quruculuq işlərinə toxunaraq bildirdi ki, bu torpaqların sahibləri qurub-yaradır, o cümlədən Xankəndi şəhərində, Xocalıda, işğaldan azad edilmiş digər ərazilərdə geniş bərpa, abadlıq işləri aparılır: "Bu stadion cəmi iki ay ərzində, demək olar ki, yenidən inşa edilmişdir, əsaslı təmir olunmuşdur. Separatizm simvolikasını əks etdirən bütün yazılar artıq tarixin zibilxanasına atıldı. Bütün başqa şəhərlər kimi, bu gün Ağdam şəhəri də yenidən qurulur. O cümlədən bir neçə aydan sonra Ağdam şəhərində "İmarət" stadionunun yenidən inşa edilməsinə başlanılacaq".

Müzəffər Ali Baş Komandanın dediyi kimi, bu gün işğaldan azad olunmuş bütün şəhər və kəndlərimizdə bərpa və yenidənqurma işləri sürətlə gedir. Bütün quruculuq işləri isə əzəli sahiblərinin tezliklə Qarabağ və Şərqi Zəngəzura qayıtmalarına hədəflənib.

Milli Məclisin deputatı Aydın Mirzəzadə "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərdə quruculuq məsələlərini xüsusi diqqətində saxlayır və vaxtaşırı həmin regiona səfər edərək görülən işlərin gedişatı ilə tanış olur, həm də növbəti mərhələlərlə bağlı tapşırıqlarını verir.

Deputat qeyd edib ki, dövlət başçısı həmçinin keçmiş məcburi köçkünlərin geri qayıtma prosesi, onların həyatının axara düşməsi məsələləri ilə də daim maraqlanır: "Bunun nəticəsidir ki, qısa zamanda artıq azadlığa qovuşmuş 5 yaşayış məntəqəmizdə dörd mindən çox insan yaşayır, 6 orta məktəb fəaliyyət göstərir. Gələn il daha çox yaşayış məntəqələrinə, şəhərlərə, kəndlərə insanlarımız geri dönəcəklər. Doğma yurdlarına qayıdan vətəndaşlarımız təkcə yaşayış yeri ilə təmin edilmirlər, eyni zamanda onların təhsil, səhiyyə məsələləri də həll edilir".

Prezident İlham Əliyevin işğaldan azad olunmuş rayonlara son səfərinə toxunan A.Mirzəzadə qeyd edib ki, dövlət başçısı bölgənin dünya standartları səviyyəsində qurulmasına böyük diqqət ayırır. Səfərlər göstərir ki, bütün məsələlər cənab Prezidentin nəzarətindədir. Dövlət başçısının apardığı siyasət Azərbaycanı daha güclü, daha cəlbedici və insanlarımızın daha yaxşı yaşayacağı bir ölkəyə çevirir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2023.- 27 dekabr (№ 284).- S.18.